*AMEA*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2019, № 2*
*Səhifə: 274-277* *ISSN: 2663-4406*

***Mətbuat tarixi***

**UOT:** 071(091)
Alxan Bayramoğlu[*]

# "MOLLA NƏSRƏDDİN"İN ƏDƏBİYYAT MARAQLILARINA MÜJDƏSİ VƏ ABDULLA SURUN "MƏKTUB"U

***Xülasə***

Mənbələr məşhur ədib və alim Məhəmmədzadə Abdulla Tofiq Surun "Türk ədəbiyyatına bir nəzər" adlı iri-həcmli bir tədqiqat əsəri yazdığı və həmin əsərin kitab şəklində nəşrinin baş tutmayıb it-bata düşdüyü barədə informasiya verir. Məqalədə A.Surun adıçəkilən tədqiqatının yazılması və nəşrinə göstərilən cəhdlərin uğursuzluğu səbəblərinə aydınlıq gətirilir və onun bəzi hissələrinin dövri mətbuat vasitəsilə oxuculara çatdırılması fikri irəli sürülüb əsaslandırılır.

**Açar sözlər:** Abdulla Sur, Türk ədəbiyyatına bir nəzər, "Molla Nəsrəddin" jurnalı, Əhməd Hikmət bəy, müqəddimə, kitab nəşri, "Füyuzat" jurnalı, "Həqiqət"

## GOOD NEWS TO THE PEOPLE INTERESTED IN LITERATURE OF "MOLLA NASRADDIN" AND "LETTER" OF ABDULLAH SUR

***Summary***

Original sources provide information about a voluminous research work called "A look at Turkish literature" written by well-known writer, scientist Muhammedzadeh Abdullah Tevfik and the publication of this work in the form of a book was not realized and lost Sur. In the article it is clarified the reasons of that research work's writing by A.Sur and failure of attempts to publish. It is also substantiated the idea of delivering to the readers through periodical press.

**Key words:** Abdullah Sur, a look at Turkish literature, "Molla Nasraddin" journal, Ali Hikmet bey, introduction, edition, "Fuyuzat" journal, "Hagigat"

## БЛАГОВЕСТЬ "МОЛЛЫ НАСРЕДДИНА" ЛЮБИТЕЛЯМ ЛИТЕРАТУРЫ И "ПИСЬМО" АБДУЛЛЫ СУРА

***Резюме***

В журнале «Мола Насреддин» была напечатана информация о том, что известным литератором и ученым Магомедзаде Абдуллой Тофигом Суром было написано объемистое исследование под названием "Взгляд на тюркскую литературу". Но оно не было выпущено отдельной книгой и исчезло неизвестно куда. В данной статье внесена ясность в причины написания этого исследования и неудачи попыток его издания. Автор выдвигает и обосновывает мысль, что некоторые части этого произведения были доведены читателям посредством периодической печати.

**Ключевые слова:** Абдулла Сур, взгляд на тюркскую литературу, журнал "Молла Насреддин", Ахмед Хикмет бек, предисловие, издание книги, журнал "Фиюзат", "Хагигет"

[*] Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Filologiya elmləri doktoru.

**Giriş.** Müşahidə və araşdırmalar göstərir ki, XIX əsrin ortalarından başlanan milli-mədəni intibah XX əsrin əvvəllərinə doğru daha sürəkli şəkil almaqla yanaşı, həm də yeni məzmun kəsb etməyə başlamışdı. Bu, özünü milli ədəbiyyat tariximizin, mənəvi-əxlaqi düşüncənin inkişaf yoluna dair müxtəlif, janr və formalı əsərlərin yazılmasında, həm də o cür əsərlərə ictimai marağın artmasında göstərirdi. Belə ki, intibah XX əsrin əvvəllərində Azərbaycanda kitab nəşri, kitab-şünaslıqla yanaşı, dövri nəşrlərə oxucu marağı da kifayət qədər artmışdı. Bunu ayrı-ayrı sərvət sahiblərinin, xeyriyyə cəmiyyətlərinin kitab nəşrinə xüsusi diqqət və vəsait ayırmaları da təsdiq edir. Belə maraqlı faktlardan biri də dövrün istedadlı və fəal qələm sahiblərindən – şair, publisist, tənqidçi, həm də ədəbiyyatşünaslarından olan Abdulla Tofiq Surun "Türk ədəbiyyatına bir nəzər" adlı tədqiqat əsərinin nəşri ətrafında cərəyan edən proseslərdən ibarətdir.

Abdulla Sur İstanbulda oxuyarkən türk (ortaq türk) ədəbiyyatının tarixinə dair geniş (iri-həcmli) bir əsər yazmaq fikrinə düşmüş və bu niyyətlə araşdırmalar apararaq "Türk ədəbiyyatına bir nəzər" adlı tədqiqat xarakterli əsər qələmə almışdır. Gəncəyə qayıdandan sonra həmin əsərin nəşri istiqamətində göstərdiyi təşəbbüslər şəhərin (Gəncənin) qabaqcıl düşüncəli ictimaiyyəti tərəfindən müsbət qarşılanmış, A.Surun əsərinin nəşrini məşhur dövlət xadimi Nəsib bəy Yusifbəyli öz öhdəsinə götürmüşdür. Bu haqda "Molla Nəsrəddin" jurnalının 14 dekabr 1908-ci il tarixli 50-ci nömrəsində "Ədəbiyyat maraqlılarına müjdə" başlıqlı xəbərdə oxuyuruq:

"Gəncəli Məhəmmədzadə Abdulla Tofiq əfəndinin "Türk ədəbiyyatına bir nəzər" adlı əsəri fevralın (1909-cu il – A.B.) ibtidasından etibarən hər ay başında bir risalə şəklində nəşrə başla-nacaq. 25 risalədən ibarət olan bu əsər üç cild üzrə min səhifəlik ədəbi bir əsərdir. Türk ədəbiy-yatının dövri-ətiq, dövri-təcəddüd, dövri-cədidinə dair tarixi, ictimai-ədəbi məlumatlar verəcək. Bu münasibətlə Osmanlı üdəba və şüərasının haman həpsinin rəsmləri ilə bizə dəyiləcək. Səbatini-Osmaniyyədən bir çoxunun fotoqrafları da bunlar arasında bulunacaq.

Abunə, yəni müştəri dəftəri açıldı.

"Türk ədəbiyyatına bir nəzər"in abunə bədəli – poçt məsarifi ilə bərabər Rusiyanın hər tərəfində 5 rublə, məmaliki-sairədə 7 rublədir. Sühubət olmaq üçün abunə bədəli şu qərar ilə dəxi qəbul olunur: Şimdidən 2 rublə. Səkkizinci risaleyi-təslimdə genə 2 rublə. On altıncı risaleyi-təslimdə genə 2 rublə. Məmaliki-sairədən olan müştərilər üçün hər dəst 3 rublədir.

Adres Naşir Yusifbəyzadə Nəsib.

q. Yelizavetpol. Nasibski Usubbekovu" [1].

Bu məlumat oxucular tərəfindən rəğbətlə qarşılanmış və həmin kitabı əldə etmək üçün ona abunə yazılanlar olmuşdur. Ancaq nədənsə, ədəbi-elmi ictimaiyyətin intizarında olduğu "Türk ədəbiyyatına bir nəzər" əsərinin nəşri düyünə düşmüşdür. Görünür, ona görədir ki, abunəçilər kitabın nəşrinin gecikmə səbəbini öyrənmək üçün müraciət etmişlər. Həmin müraciətlərə cavab olaraq A.Tofiq "Tərəqqi" qəzetində (16 mart 1909) belə bir izahat verməli olmuşdu:

*"Müdiri-möhtərəm!*

*Əsəri-acizanəm olan "Türk ədəbiyyatına bir nəzər"in nəşri barədə maarifməndimiz Nəsib bəy əfəndi tərəfindən əsəri-naçizanəmin fevral ayı ibtidasında nəşr olunacağı elan edilmişdi. Lüzumlu bəzi kitabların İstanbuldan cəlbi məcburiyyəti ilə ustadi-möhtərəm səadətli Əhməd Hikmət bəy əfəndidən göndəriləcək müqəddimənin daha yetişməməsi naşir bəy əfəndiyi bu qədər təxir ilə işə başlamağa məcbur etdi.*

*Hər halda kitablar vüsul olur-olmaz işə başlanılacağı və meydani-intişara qoyulacağı qəti surətdə təyin ediləcək. Möhtərəm müştərilərə zamanilə xəbər veriləcəyini ərz ilə əfvlərini istərəm.*

*5 mart 1909. Gəncə.*

*Məhəmmədzadə Abdulla Tofiq" [2].*

Oxuculara bu müraciət məktubundan aydın olur ki, Abdulla Sur "Türk ədəbiyyatına bir nəzər" adlı tədqiqatını hələ tamamlanmış hesab etmədiyi üçün onun üzərində təkmilləşdirmə işini davam etdirirmiş. O, əsərini daha təkmil və əhatəli şəkildə çapa vermək üçün İstanbuldan bəzi kitablar sifariş edibmiş. Məktub-müraciətdəki "lüzumlu bəzi kitabların İstanbuldan cəlbi məcburiyyəti ilə

ustadi-möhtərəm səadətli Əhməd Hikmət bəy əfəndidən göndəriləcək müqəddimənin daha yetişməməsi naşir bəy əfəndiyi bu qədər təxir ilə işə başlamağa məcbur etdi", – sözlərindən aydın olur ki, 1909-cu ilin martında nə İstanbuldan gözlənilən kitablar gəlib yetişmiş, nə də A.Surun həmin əsərinə Əhməd Hikmət bəyin yazacağı müqəddimədən bir xəbər çıxmışdır. Ona görə müəllif – A.Sur oxuculara üzrxahlıqla vəd verirdi ki, gözlənilən kitablar gəlib çıxan kimi işə davam edəcək və "Türk ədəbiyyatına bir nəzər"in nəşri vaxtı dəqiqləşdiriləcək.

Lakin görünür, bir tərəfdən Abdulla Tofiqin bu intizarı sona yetmədiyi, yəni İstanbuldan gözlənilən kitablar və müqəddimə gəlib Gəncəyə çatmadığı, digər tərəfdən də onun başı digər yaradıcılıq, ictimai-mədəni və pedaqoji işlərə bərk qarışdığı üçün "Türk ədəbiyyatına bir nəzər" əsərinin tamamlanmağı və nəşri təxirə salınmış, müəllifin şəxsi həyat və fəaliyyətində baş verən sonrakı proseslər isə bu böyük zəhmətin yarımçıq qalması ilə nəticələnmişdir.

Abdulla Tofiq Surun dostlarına yazdığı məktublardan və həyatına dair digər faktlardan məlum olur ki, 1909-1910-cu illərdə həm Gəncə Ruhani Mədrəsəsində, həm şəhərdə təşkil edilən xeyriyyə, dram cəmiyyətlərinin və ədəbiyyat dərnəyinin işində, həm mədəni kütləvi tədbirlərdə, o cümlədən Nizami Gəncəvinin qəbirüstü abidəsinin bərpası və təmiri ilə bağlı keçirilən tədbirlərdə fəal və gərgin surətdə çalışır, həm Bakıda çıxan mətbuat orqanları ("Həqiqət", "Tərəqqi", "Günəş" və s.) ilə sıx əməkdaşlıq edir, həm də Azərbaycan folklor nümunələri və qədim türk tarixinə dair ədəbi, etnoqrafik və arxeoloji materiallar toplamaqla məşğul olurmuş [3, s.21; 4, s.22, 23]. Məsələn, Kiyevdə müqim (oturan, yaşayan, olan – A.B.) gəncəli dostlarımdan biri təbibə ("Tərəqqi" qəz, 8 aprel 1909) başlıqlı məqaləsinin əvvəlində o, özünün ruhi-psixoloji gərginlikdən yana yorğunluq və süstlük məngənəsində əzilən həyat varlığı haqda yazır:

"…Tənbəllik ilə qarışıq yorğunluğu. Bu günlərdə mədrəsədə işimiz pək zor… Xüsusən dərslərimdə bu məşğuliyyət zehniyyəyə qarışdıqdan sonra, adətən bir odun parçası kibi… kəsiliyorum. Evə gedib "odam"a çəkildiyim zaman çul kibi ya yatağa, ya da qoltuğa (qoltuqlu kürsüyə, divan-kresloya – A.B.) sərilməkdən başqa bir şeyə iqtidarım qalmayıb.

Bu yorğunluğa kiçik qardaşımın "vərəm" yatağında doqquz aydan bəri inlədiyini düşündüyüm dəqiqələr artırılırsa, nə halda bulunacağımı bir dərəcəyə qədər, əlbəttə təyin edə bilərsiniz.

Bəradər (qardaş – A.B.) həyatım pək kədərəngiz (kədərli, qəmli – A.B.) keçiyor! Təsəlli bula biləcək bir cəhət, bir çöhrə görmüyurəm.

Həyatımın bu sitəmlərinə qarşı bən nə yaparam, biliyormusunuz? Qımışıram!.. (burada gülümsəmək, dodağı qaçmaq – A.B.)…

O (yəni həyat – A.B.), şiddətini, məzalimini (zülmkarlığını – A.B.) artırdıqca, xainliyini, qəddarlığını irəlilətdikcə bən də pərdə-pərdə qəhqəhələr qoparıram!.. Həyat bu ya! …Deyərim" [5].

**Nəticə.** Beləliklə, yuxarıda göstərdiyimiz səbəblərlə (İstanbuldan göndərilməsi gözlənilən fotoşəkillərin, lazımlı kitablar və Əhməd Hikmət bəyin müqəddiməsinin ləngiməsi) yanaşı, güzəran ağırlığı, iş rejiminin gərginliyi, bitib-tükənməyən məişət qayğıları və s. ucbatından, həmçinin mübtəla olduğu xəstəlik üzündən A.Sur "Ədəbiyyat maraqlılarına", abunəçilərə və geniş ictimaiyyətə "Türk ədəbiyyatına bir nəzər" əsərinin tamamlanaraq bir qədər də təkmilləşdirilərək çapa verilməsi ilə bağlı verdiyi vədi yerinə yetirməyə fürsət tapa bilmədi. Ancaq onu da qeyd edək ki, Abdulla Tofiq Surun "Türk ədəbiyyatına bir nəzər" adlı fundamental tədqiqatının bəzi bölmələri – "Füzuliyə bir nəzər", "Nəfiyə bir nəzər", "Sinan paşaya bir nəzər" və s. "Füyuzat" jurnalı və "Həqiqət" qəzeti vasitəsilə oxuculara təqdim edildi [6; 7]. Çapı nəzərdə tutulan "Türk ədəbiyyatına bir nəzər"lə mətbuatda dərc edilən məqalələrin adlarının sonluğundakı "bir nəzər" ifadəsinin eyniliyi həmin məqalələrin böyük və çoxmiqyaslı əsərin – "Türk ədəbiyyatına bir nəzər"in tərkib hissələrinə daxil olması, müvafiq bölmələri kimi nəzərdə tutulduğu fikrini söyləməyə əsas verir.

**ƏDƏBİYYAT**

1. Ədəbiyyat maraqlılarına müjdə. – "Molla Nəsrəddin" jurnalı, 14 dekabr 1908, №50.
2. Məhəmmədzadə Abdulla Tofiq. Məktub – "Tərəqqi" qəzeti, 16 mart 1909.
3. Bayramoğlu Alxan. Abdulla Tofiq Surun həyatı və bədii yaradıcılığı. Nizamişünaslıq. AMEA Gəncə bölməsinin Elmi Xəbərləri. Gəncə, 2015, №5.
4. Qasımov Cəlal. Abdulla Tofiq Surun Həyatı və yaradıcılığı. Bakı, "Təhsil", 2004.
5. Dostunuz A.Sur. Kiyevdə müqim gəncəli dostlarımdan bir təbibə. "Tərəqqi" qəzeti, 8 aprel 1909.
6. "Füyuzat" jurnalı, 1907.
7. "Həqiqət" qəzeti, 25, 26, 28 dekabr 1909.